# Xəyalları gerçək etmək yalnız Fatehlərə məxsusdur

**Haqqı dünyaya tanıdan, bəzi güclərin diqtəsi ilə susdurulmuş ədaləti bərpa edən, xalqımıza faciələr yaşadan iki yüz illik erməni probleminin kökünü kəsən, bir millətin istiqlalını əzm və mətanətlə qoruyan, tarixin gedişatını dəyişən, inkişaf və tərəqqinin ritmini yaradan Prezident İlham Əliyevin həyat fəlsəfəsi, uğur düsturu bənzərsizdir. Azərbaycanı aydın üfüqlərə doğru aparan və dünyaya tanıdan inkişafın əsas hədəfləri 22 il bundan əvvəl müəyyən edilib. Əslində inkişafa aparan yol heç də asan olmayıb, ciddi çətinliklər, Ermənistanın işğalı, keçmiş məcburi köçkünlərin problemləri, sosial məsələlər öz həllini gözləyirdi. Belə çətin və məsuliyyətli bir dövrdə İlham Əliyev gərgin fəaliyyəti ilə xalqımızın etimadını, etibarını və ən əsası isə məhəbbətini qazanmağa nail oldu.**

2003-cü il avqustun 4-də İlham Əliyevin Milli Məclisdə təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin olunması xalqımızın taleyində mühüm bir dövrün başlanması kimi böyük əhəmiyyət kəsb edir. Hökumətin yeni rəhbəri həmin vəzifədə cəmi bir neçə ay çalışdı və bu özünü təsdiqləmək üçün o qədər də böyük vaxt, deyildi. Buna baxmayaraq İlham Əliyev qısa zaman kəsiyində xarakterinin ən başlıca keyfiyyətini büruzə verdi, liderlik ruhunu sübut etdi.

Özünü bəyan etdiyi kimi, həm də Heydər Əliyev yolu ilə getdiyini, onun siyasi xəttinə sadiq olduğunu konkret fəaliyyəti ilə, gördüyü işlərə sübuta yetirdi. Qısa müddət ərzində ona göstərilən etimadı doğrultdu. İlham Əliyev Azərbaycan Respublikasının BMT Baş Məclisinin sessiyasında nitq söyləyən ilk Baş naziri olub.

2003-cü ilin sentyabr ayında BMT Baş Məclisinin 58-ci sessiyasında iştirak edən Baş nazir İlham Əliyev çıxışında beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlər arasında qarşılıqlı anlaşılmazlıqların meydana çıxmasını Təhlükəsizlik Şurasının şəraitə uyğun, çevik və adekvat münasibət göstərə bilməməsini qeyd edərək mövcud BMT mexanizmlərinin zamanın tələbinə cavab verməməyi vurğulamış və təşkilat daxilində islahatların vacib məsələyə çevrildiyini bildirmişdir. İlham Əliyev çıxışında regional və beynəlxalq təhlükəsizliyə olan təhdidlərlə bağlı fikirlərini açıqlamış, dünyada cərəyan edən mürəkkəb proseslərdə BMT-nin yenidən strukturlaşmasını, onun perspektiv fəaliyyət strategiyasında əsaslı dəyişikliklər etməsini ön plana çıxarmışdı. Azərbaycan hökumət başçısının fikrincə, BMT Təhlükəsizlik Şurasında "həm bugünkü, həm də yarıməsrlik reallıqlar öz əksini tapmalı" idi. Azərbaycan Respublikası BMT mexanizmlərinin yenidən işlənməsini, xüsusilə də Təhlükəsizlik Şurasının daimi üzvlərinin veto hüququna yenidən baxılmasını təklif etmişdir. Çox cəsarətli çıxışı ilə dünya siyasi aləminə adını yazdıran İlham Əliyev islahatçı xarakterini də büruzə vermişdir.

2003-cü il avqustun 15-də prezidentliyə namizəd, Baş nazir İlham Əliyev ABŞ-ın "Associeyted Press" agentliyinin müxbirinə müsahibəsində demişdi: "Ölkəmizin əksər vətəndaşları üçün də ən başlıcası indiki siyasətin davam etdirilməsi, indiki vəziyyətin qorunub saxlanmasıdır. Əgər bu gün məni bunun üçün lazımlı adam hesab edirlərsə, bu məsuliyyəti üzərimə götürməyə hazıram". Əlbəttə, bu əminliyin arxasında Heydər Əliyev məktəbinin verdiyi güc, siyasi səriştə, möhkəm iradə və xalqın ümummilli liderin siyasətinə inamı dayanırdı. Qarşıda isə İlham Əliyevi əsl mübarizə gözləyirdi. 2003-cü ildə Azərbaycanda prezident seçkiləri keçirildi və seçicilər İlham Əliyevin seçkiqabağı proqramında regionların sosial-iqtisadi inkişafının ilk yerdə dayandığını gördülər. Doğrudan da regionlarda vəziyyət o qədər də yaxşı deyildi. Bunun da əlbəttə ki, təbii səbəbləri var idi - infrastruktur köhnəlmiş, demək olar ki, sıradan çıxmışdı, bir çox müəssisələr fəaliyyətini dayandırmışdı, kənd təsərrüfatında durğunluq yaşanırdı. Əhalinin böyük əksəriyyəti bölgələrdə - rayonlarda, kəndlərdə yaşayır, onların həyat səviyyəsi, güzəranı yaxşılaşmalı idi. Belə bir məqamda regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramı təsdiq edildi və həyatın bütün sahələrində təkanverici proqrama çevrildi. 2003-cü ildə keçirilən prezident seçkilərində doğma xalqının inam və etibarını qazanan İlham Əliyev prezidentlik fəaliyyətinin ilk günlərində "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli Fərman imzaladı. Regionların inkişafı üçün uğurla icra edilən birinci Dövlət Proqramının əvvəl bölgələrdə inkişafın əsaslarını yaratdı və yeni mərhələnin təməlini qoydu. 2004-cü ildə qəbul edilmiş birinci dövlət proqramı sözün əsl mənasında tarixi hadisə idi. Sonrakı mərhələlər aydın şəkildə göstərdi ki, respublikamızda həyata keçirilən dövlət proqramları bir-birinin məntiqi davamıdır. Bu siyasətin təməlində konkret işlər, real inkişaf, əməl dayanır və verilən hər bir söz həyatda öz əksini tapdığı üçün xalq tərəfindən güclü dəstək qazanır. Artıq bu gün qürurla deyirik ki, Azərbaycan uğurların zirvəsindədir. Bunu təkcə biz demirik, dünyanın ən inkişaf etmiş ölkələrində də etiraf edirlər. Zənnimizcə, bu nöqtədən ən yaxın tariximizə nəzər salsaq yaxşı olar. Zamanın tələtümlərini, xarici qüvvələrin təhdidlərini, daxili çəkişmələri, anarxiyanı, dövlət çevrilişi cəhdlərini, vətəndaş müharibəsinə təhriki, müstəqilliyin itirilməsi təhlükəsini fədakarlıqla və qətiyyətlə dəf edən Ulu Öndərin layiqli varisi İlham Əliyev çox böyük siyasi məharət və qətiyyət nümayiş etdirdi.

Tarixin, zamanın, güclülərin, tərəfkeşlərin amansız ziddiyyətlərinin cövlan etdiyi bir məqamda Azərbaycan Qarabağ münaqişəsi, torpaq itkisi, erməni işğalı və hərbi təcavüzü, bir milyona yaxın məcburi köçkünün problemi ilə üz-üzə qalmışdı. Bütün bunlar xalqımızın taleyindən daş kimi asılmışdı. Ermənistan və ermənipərəst qüvvələr azərbaycanlılara qarşı törədilən deportasiyanı, soyqırımı, işğalı Xankəndidə və ətraf ərazilərdə məskunlaşan bir ovuc hayın öz müqəddəratını təyinetmə hüququ adı ilə saxtakarlıqla pərdələmək istəyirlər, haqqımızı gizlətməyə çalışırdılar. Qalib Ali Baş Komandanın "vur" əmri başımızın üzərinə çökmüş qara buludları döyüş meydanında şimşək kimi parçaladı, onun zərrələri isə dünyanın hər guşəsində böyük əks-səda verdi. Son 22 ilə nəzər salanda aydın olur ki, Prezident İlham Əliyevin siyasətinin mayasını torpaqlarımızın işğalçılardan azad edilməsi, iqtisadi inkişaf, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, yeni texnologiyaların tətbiqi, etibarlı tərəfdaşlıq, sabitlik, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, yeni iş yerlərinin açılması, sahibkarlığın inkişaf etdirilməsi, gənclər arasında vətənpərvərliyin geniş təbliği təşkil edir. Dünya tarixində müharibədən çıxmış ölkənin dərhal azad edilən ərazilərdə quruculuq işlərinə başlaması nadir hadisədir. Bütün dağıntılara, şəhər və kəndlərin yer üzündən silinməsinə, müharibə yaralarının ağırlığına, düşmənin qəddar vəhşiliklərinə, torpaqlarımızın minalarla çirkləndirilməsinə baxmayaraq, Prezident İlham Əliyev qətiyyətlə, güclü inam və gələcəyə nikbin baxışlarla bildirdi ki, Qarabağı dünyanın ən çiçəklənən və dinc bölgəsinə çevirəcəyik! Artıq bunun şahidi oluruq. Qarabağda və Şərqi Zəngəzurda nəhəng infrastruktur layihələrin təməlqoyma və açılış mərasimləri keçirilir, bir vaxtlar silahların səsi dolaşan, işğalçıların ayaqları altında inildəyən torpaqlara yeni həyat qayıdır. Qarabağ və Şərqi Zəngəzurda təkcə 2022-ci ildən başlayaraq 80-dən çox layihə icra olunur. Son üç il ərzində dövlətimizin başçısı Qarabağa və Şərqi Zəngəzura 100-dən çox səfər edib, təməlqoyma və açılış mərasimlərində iştirak edib.

2020-ci il Prezident, Ali Baş Komandan İlham Əliyevin uzun illər ərzində həyata keçirdiyi məqsədyönlü və strateji hədəflərə yönələn siyasətin parlaq zirvəsi oldu. 30 ilə yaxın işğal altında qalan torpaqlarımız düşməndən azad edildi, ərazi bütövlüyümüz bərpa olundu, xalqımızın yurd həsrətinə son qoyuldu. Prezident İlham Əliyev bu böyük qələbəsi ilə Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini, yeni tarix yazdı və 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi. Vətən müharibəsi Xalq-Prezident birliyini, həmrəyliyini bir daha təsdiqlədi. Harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlılar dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşdilər. O cümlədən 50-dən artıq siyasi partiya Prezident İlham Əliyevlə həmrəy olduğunu bəyan etdi. Bu, ölkəmizdə vətəndaş həmrəyliyinin, ümummilli məsələlərdə müxalifət-iqtidar münasibətlərinin bir kənara qoyulması ilə yanaşı, Prezidentin milli maraqların qorunmasına xidmət edən prinsipial mövqeyinin, tutduğu düzgün yolun dəstəklənməsi idi. Mövqeyindən bir addım belə geri çəkilməyəcəyini bəyan edən Prezident İlham Əliyev Azərbaycana qarşı 7 şərt irəli sürən Ermənistanın baş naziri Nikol Paşinyanın qarşısına yalnız bir şərt qoydu - torpaqlarımızdan rədd olub getmək. Ermənistan havadarlarına arxalanaraq Qarabağda separatizmi qorumağa çalışır, onları silahsursatla təmin edirdi. Ermənistanın hərbi rəhbərlərinin və qondarma separatçı rejimin münaqişə dövründə ölkəmizə qarşı törətdiyi çoxsaylı müharibə cinayətlərinə, kütləvi qırğın və soyqırımı aktlarına, terrorçuluğa, vandalizmə Azərbaycan özü son qoydu. Cəsarətlə, inadkarlıqla, fədakarlıqla, qəhrəmanlıqla, şərəflə, siyasi və hərbi güc ilə Azərbaycan Cənubi Qafqazda reallığı dəyişdi, Qalib Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə müzəffər Silahlı Qüvvələrimizin bölmələri tərəfindən icra edilmiş "Qisas", "Dəmir Yumruq" əməliyyatları Azərbaycan xalqının hərb tarixinə qızıl hərflərlə yazıldı, işğalçılığı, nasizmi dövlət siyasətinə çevirən Ermənistanın təslim olması ilə nəticələndi.

2003-cü ildə böyük səs çoxluğu ilə Prezident seçilən cənab İlham Əliyevin qarşısında üç əsas məsələ dayanırdı: ölkənin iqtisadi gücünün artırılması, müasir ordu quruculuğu və torpaqların işğaldan azad edilməsi. Mübaliğəsiz demək olar ki, hər üç istiqamətdə misilsiz işlər həyata keçirildi. Bu gün güclü Azərbaycan qalib ölkədir, diktə edəndir, onunla hesablaşırlar, etibarlı tərəfdaşdır, dünyanın 120 ölkəsini əhatə edən Qoşulmama Hərəkatının sədrlik edib. Qısa zaman kəsiyində yüksək təşkilatçılıq nümunəsi göstərən və COP29-a ev sahibliyi edən Bakıya dünyanın hər yerindən qonaqlar gəldilər və sözün əsl mənasında heyran qaldılar. Elə bu heyranlıqla da iqlim dəyişmələri ilə bağlı müşkülə çevrilmiş məsələlərin çoxunun həllinə Bakıda nail olundu. "Yaşıl dünya" naminə Lider həmləsi, Lider qətiyyəti öz sözünü dedi.

Zamanın fövqündə dayanmaq, millətinə şərəf və qürur gətirmək, müqəddəs bayrağını ucaltmaq, məğlub xalqı qalib xalqa çevirmək, xəyalları gerçək etmək yalnız fatehlərə məxsusdur. Qlobal güclərin fitvası ilə sanki tilsimə salınmış, qırx yerdən düyün vurulmuş, kilidə salınmış Qarabağ problemini həll edən, işğala və hərbi təcavüzə son qoyan, Azərbaycanın yaralanmış xəritəsini bütövləşdirən, təcavüzkarları torpaqlarımızdan qovan, beş il bundan əvvəl üç cəbhədə, ordusu savaş meydanında, özü diplomatiya və informasiya cəbhəsində döyüşən, dəmir iradəsi, qətiyyəti, Vətən və xalq məhəbbəti, liderlik xarakteri ilə 30 illik işğala son qoyan, haqqı, ədaləti bərpa edən, milli qürurumuzu, şərəfimizi ucaldan Qalib Ali Baş Komandan İlham Əliyev dövranın nəbzini və mənzərəsini dəyişməyə nail oldu. Qarabağ və Şərqi Zəngəzur: yeni yanaşma, ağıllı həllər, modern şəhərsalma, Böyük Qayıdış. İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurda son beş il qələbənin, gücün, quruculuğun, iradənin, ləyaqətin, hünərin, qayıdışın təntənəsi kimi tarixə qovuşur. Böyük quruculuq, yollar, tunellər, körpülər, hava limanları, yeni istehsal sahələri, modern şəhərlər, işğaldan azad edilən ərazilərdə "ağıllı" həllər. Yeni yanaşma, alternativ və bərpa edilən enerji, "yaşıl enerji" ixracatçısı. İşğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin yaradılması hünərin və fədakarlığın nümunələri, Prezidentin cızdığı inkişafın impulslarıdır. Azərbaycanda 22 ilin uğur düsturu-nikbinlik, qətiyyət, liderlik ruhu davam edir. Məhz buna görə də İlham Əliyev doğma xalqının qəlbində, bütün türk dünyasında, islam aləmində özünə möhtəşəm qürur abidəsi ucaldıb.

**İlham Əliyev 2003-cü il avqustun 4-də Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir**

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 3 avqust (№ 160).-